# QOY ƏDALƏT ZƏFƏR ÇALSIN!



"SƏS" qəzeti mənim üçün ən aziz qəzetdir

№ 011 (7421)

Qəzet 1991-ci il yanvarın 11-dən çıxır

10 fevral 2026-cı il.
Qiymәti 1 manat

## Prezidentdən mühüm Sərəncam - PENSİYALAR ARTIRILDI



4

## Azərbaycan etibarlı və mühüm tərəfdaşdır!

Prezident İlham Əliyev ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının nümayəndə heyətini və ABŞ Ticarət Palatasının nümayəndə heyətini qəbul edib



2

# Qlobal təhdidlər və Azərbaycan dövlətçiliyi üçün təhlükəsizlik məsələsi

### Mürəkkəb qlobal və geosiyasi təlatümlərdən ölkəmizi qoruyan sistemlər necə işləyir?



4

### Cibdə "bomba": şəxsi məlumatlar smartfonda niyə təhlükəlidir?



5

### "WhatsApp"da başqasını təhqir etmək hansı hüquqi məsuliyyət yaradır?



8

### Xıdır İlyas və ya Xıdır Nəbi mərasimi



6

### Psixotron müharibə: silahlı uşaqlar silahsız cəmiyyətə qarşı



6

### Tramp müavinini Bakıya göndərdi - bölgədə nələr dəyişəcək?



5

# Azərbaycan etibarlı və mühüm tərəfdaşdır!

## Prezident İlham Əliyev ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının nümayəndə heyətini və ABŞ Ticarət Palatasının nümayəndə heyətini qəbul edib

***Azərbaycan Prezidenti İlham Əliyev fevralın 9-da ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının sədri Betsi Berns Kornun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul edib. AZƏRTAC xəbər verir ki, söhbət zamanı Prezident İlham Əliyevlə ABŞ-ın Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransının nümayəndələrinin əvvəlki görüşləri məmnunluqla xatırlandı.***



Qəbula görə dövlətimizin başçısına minnətdarlığını bildirən Betsi Berns Korn Azərbaycanın strateji əhəmiyyətini, həmçinin ABŞ və İsraillə yaxşı əlaqələrini nəzərə alaraq əməkdaşlığın genişləndirilməsi baxımından məsələlərin müzakirəsi üçün böyük nümayəndə heyəti ilə ölkəmizə səfərə gəlməkdən məmnunluğunu ifadə etdi.



Betsi Berns Korn ötən ilin avqustunda Azərbaycanla Ermənistan arasında sülh gündəliyinin irəli aparılması ilə bağlı Vaşinqtonda əldə edilmiş nailiyyətlər münasibətilə təbriklərini çatdırdı. O, bu məsələdə Azərbaycan Prezidentinin nümayiş etdirdiyi liderliyi və ABŞ Prezidentinin göstərdiyi səyləri xüsusi vurğuladı.

Dövlətimizin başçısı təbriklərə görə təşəkkürünü bildirərək, nailiyyətlərin əldə olunmasında ABŞ Prezidenti Donald Trampın roluna toxundu. Azərbaycan və Ermənistan tərəfinin artıq sülh şəraitində yaşamağa öyrəşdiklərini deyən Prezident İlham Əliyev bölgədə sülh və sabitliyin təmin edilməsinin regionun inkişafına mühüm töhfə verəcəyini vurğulayaraq, TRIPP və digər bağlantı layihələrinin regional əməkdaşlığın genişləndirilməsi baxımından önəmini qeyd etdi.

Donald Trampın hakimiyyətə gəlməsindən sonra Azərbaycan-ABŞ əlaqələrinin uğurla inkişaf etdiyini bildirən dövlətimizin başçısı son 6 ayda ABŞ Prezidenti ilə bir neçə dəfə görüşməsini ikitərəfli münasibətlərimizin tarixində ilk nümunə olduğunu dedi.

Görüşdə Azərbaycanda tarixən tolerant mühitin hökm sürdüyü qeyd edildi, digər xalqların nümayəndələrinə olduğu kimi yəhudilərə də göstərilən dövlət qayğısına toxunuldu.



Söhbət zamanı Azərbaycan-ABŞ əlaqələrinin inkişafından məmnunluq bildirildi, Əsas Amerika Yəhudi Təşkilatlarının Prezidentləri Konfransı ilə ölkəmiz arasında uğurlu əməkdaşlığın həyata keçirildiyi qeyd edildi, onların Azərbaycan-ABŞ və Azərbaycan-İsrail ikitərəfli münasibətlərinin genişlənməsində rolu vurğulandı.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da ABŞ Ticarət Palatasının beynəlxalq üzvlərlə əlaqələr, Yaxın Şərq və Türkiyə üzrə baş vitse-prezidenti Kuş Çoksinin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

Nümayəndə heyətinə Palatanın Yaxın Şərq, Mərkəzi Asiya və Türkiyə üzrə vitse-prezidenti Cennifer Miel, həmçinin "Apple", "Ardea Energy Technologies Inc.", "Ericsson AB", "ExxonMobil", "Herbalife", "Illumina", "Meta", "Visa", "Wabtec", "Baker Hughes", bp, "Boeing Global", "Honeywell", "J.P. Morgan", "Lummus Technology", "Marriott", "Mastercard", "Shell International", "Azerbaijan Coca-Cola Bottlers" MMC və "Motorola Solutions" şirkətlərinin rəhbər şəxsləri daxildir.

## *Rəsmi xronika*

Prezident İlham Əliyev fevralın 6-da İran İslam Respublikasının müdafiə və silahlı qüvvələrə dəstək naziri Əziz Nəsirzadənin başçılıq etdiyi nümayəndə heyətini qəbul edib.

***

Tahir Yaqub oğlu Budaqov Bakı şəhəri Nəsimi Rayon İcra Hakimiyyətinin başçısı təyin edilib. SİA-nın məlumatına görə, bu barədə Azərbaycan Prezidenti İlham Əliyev Sərəncam imzalayıb.

Dövlət başçısının bundan əvvəl imzaladığı sənədə əsasən, Tahir Budaqov Dövlət Statistika Komitəsinin sədri vəzifəsindən azad edilib.

***

Prezident İlham Əliyev əmək pensiyalarının indeksləşdirilməsi haqqında Sərəncam imzalayıb.

***

Prezident İlham Əliyev "Azərbaycan Respublikasının Səhiyyə Nazirliyi ilə Latviya Respublikasının Səhiyyə Nazirliyi arasında səhiyyə və tibb elmi sahəsində əməkdaşlıq haqqında Saziş"in təsdiq edilməsi barədə Fərman imzalayıb.

***

"Notariat haqqında" və "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının qanunlarında dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2025-ci il 30 dekabr tarixli 336-VIIQD nömrəli Qanununun tətbiqi və bununla əlaqədar Azərbaycan Respublikası Prezidentinin bəzi fərmanlarında dəyişiklik edilməsi haqqında Fərman imzalayıb.

# Zəfər seçkilərindən ötən iki il

***Güclü liderlik, xalqa sədaqət, uzaqgörən siyasət Azərbaycanı ən yeni tarixində heç vaxt olmadığı qədər güclü və qüdrətli dövlətə çevirib. Azərbaycan xalqı Qarabağ Zəfəri ilə tarixində yeni bir dövrə qədəm qoyub - qalib xalqın, qalib dövlətin dövrünə. Müzəffər Ali Baş Komandan 30 illik münaqişəyə son qoydu, uzun illər işğal altında qalan torpaqlarımızı əsl sahiblərinə qaytardı. Amma biz təkcə müharibəni yox, sülhü də qazandıq.***



İki il əvvəl Azərbaycanın ictimai-siyasi həyatına xüsusi yazılan tarixi günlərdən daha birini yaşadıq. Azərbaycan tarixinin səhifəsinə yazılan 7 fevral 2024-cü il ölkəmizdə keçirilən növbədənkənar prezident seçkiləri müdrik xalqımızın yekdilliyi ilə, həmrəyliyi ilə yeni tariximizə möhrünü vurdu. Budəfəki prezident seçkiləri ərazi bütövlüyünü, suverenliyini bərpa etmiş Azərbaycanın üçrəngli Bayrağının qürurla və əzəmətlə dalğalandığı bütün ərazilərində keçirildi. Azərbaycan bu tarixi seçkilərlə yeni və qarşıda milli hədəflər üçün sonsuz üfüqlər açan tarixi bir mərhələyə daxil oldu. Azərbaycan torpaqlarının işğaldan azad olunmasına, suverenliyimizin bərpasına yönəlmiş, xalqımızın arzularını ifadə edən tarixi bir missiya uğurla başa çatdırıldı və fevralın 14-də Milli Məclisdə keçirilən andiçmə mərasimi ilə tarixi dövlətçilik ənənələrimiz, milli dəyərlərimiz, döyüş və Zəfər ruhumuz, qurub-yaratmaq potensialımızdan ibarət yeni bir mərhələyə qədəm qoyuldu. Hamılıqla, həmrəyliklə hər kəs öz tarixi seçimini edərək bir daha inkişafa, tərəqqiyə, sabitliyə, əmin-amanlığa səs verdi. Bu səs Azərbaycan Prezidenti İlham Əliyevin yeritdiyi müdrik və uzaqgörən siyasətə verilən səs idi. Bu seçkilər Azərbaycan üçün tam bir demokratik bayram oldu. İlk dəfə Zəfər seçkiləri suveren və bütöv Azərbaycanın bütün ərazilərində keçirildi. Seçkilər günü daha bir tarixi məqama şahidlik etdik. Azərbaycan Prezident İlham Əliyev, Birinci xanım Mehriban Əliyeva və ailə üzvləri Xankəndi şəhərində 122 saylı seçki dairəsinin 14 saylı seçki məntəqəsində səs verdilər. Prezidentin Xankəndidə səs verməsi "erməni separatçılarının tabutuna vurulan son mismar" idi. Prezident o binada səs verməklə Ermənistana, eləcə də onun xarici havadarlarına mesajlarını çatdırmış oldu.

Prezident İlham Əliyev Ulu Öndərimizin gördüyü möhtəşəm işləri qətiyyət və prinsipiallıqla davam etdirərək Azərbaycanın iqtisadi, siyasi, hərbi qüdrətini, nüfuzunu daim artıraraq, xalqın güzəranını və rifahını dönmədən yüksəldərək, ərazi bütövlüyümüzü təmin edərək və suverenliyimizə imza ataraq xalqın alternativsiz Liderinə çevrilib. Azərbaycan bayrağının işğaldan azad olunan torpaqlarımızda ucaldılmasını hər kəsin 30 ilə yaxın bir zamanda gözlədiyi möhtəşəm hadisə idi. Azərbaycan Prezidenti İlham Əliyevin bildirdiyi kimi bizim ölkəmiz üçün yeni dövr başlayır: "Yeni quruculuq dövrü, inkişaf dövrü, azad edilmiş ərazilərimizin bərpası dövrü. Mən tam əminəm ki, Azərbaycan xalqı bu dövrdə də birlik, həmrəylik göstərəcək, güclü iradə göstərəcək. Azərbaycan xalqı yenə də birləşərək dağıdılmış bu şəhərləri, kəndləri bərpa etmək üçün əlindən gələni edəcəkdir. Biz bundan sonra böyük və qürurlu xalq kimi yaşayacağıq".

## "BUNDAN SONRA DA AZƏRBAYCANIN HƏRTƏRƏFLİ İNKİŞAFI, ƏRAZİ BÜTÖVLÜYÜMÜZÜN QORUNMASI ÜÇÜN ƏLİMDƏN GƏLƏNİ ƏSİRGƏMƏYƏCƏYƏM"

Azərbaycan üçün artıq yeni bir dövr başlanılıb. Ərazi bütövlüyünü, suverenliyini təmin etmiş bir dövlətin müstəqillik tarixində ərazi bütövlüyü çərçivəsində baş tutmuş Zəfər seçkisindəki Qələbədən sonra ölkənin ictimai-siyasi, sosial-mədəni həyatı üçün yeni hədəflər müəyyənləşdirilib. Zəfərimizin, həmçinin ərazi bütövlüyümüzün və suverenliyimizin müəllifi olan Prezident İlham Əliyevin ətrafında bir yumruq kimi birləşən xalq qalib Liderinə səs verməklə bir daha təsdiqlədi ki, xalq-Prezident birliyi, həmrəyliyi sarsılmazdır. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev andiçmə mərasimində yeni dövr üzrə müəyyənləşdirilən hədəfləri mesaj verdi. "Bundan sonra da Azərbaycanın hərtərəfli inkişafı, ərazi bütövlüyümüzün qorunması üçün əlimdən gələni əsirgəməyəcəyəm" - deyən Prezident bildirib ki, iyirmi ildən çoxdur ki, Azərbaycan xalqı mənə öz dəstəyini göstərir. Dövlətimizin başçısı İlham Əliyevin prezidentlik fəaliyyətinin 22 illiyi dövründə verilən hər bir vəd, qarşıya qoyulan vəzifələr yerinə yetirildi. Ötən 22 illik tariximiz Azərbaycanın böyük bir salnaməsini yaratmış, güclü iqtisadiyyata, dinamik inkişafa, dünya dövlətləri sırasında xüsusi imicə malik olan dövlət kimi öz imicini təsdiqləmişdir. Dövlət siyasətinin müasir modelini yaradan Azərbaycan Prezidenti İlham Əliyevin yüksək idarəçilik məharəti, milli maraqlara əsaslanan daxili və xarici siyasəti bütün sferalarda yüksək nailiyyətlərlə müşahidə olunur. "2003-cü ildə ilk dəfə Prezident vəzifəsinə seçiləndə əziz xalqımı əmin etmişdim ki, qarşıda duran bütün vəzifələri icra etməyə, xalqın yüksək etimadını doğrultmağa çalışacağam. Bu illər uğurlarla dolu, qələbələrlə dolu illər olmuşdur. Çətinliklər də oldu, problemlər də oldu, ancaq Azərbaycan xalqı bir yumruq kimi birləşərək bütün çətinliklərə və problemlərə baxmayaraq, inkişaf və tərəqqi yolu ilə uğurla gedirdi" - deyə Prezident diqqətə çəkib.

## "BİZİM SİYASƏTİMİZİN MƏRKƏZİNDƏ AZƏRBAYCAN VƏTƏNDAŞI, ONUN QAYĞILARI, ONUN PROBLEMLƏRİ, ONUN TƏHLÜKƏSİZLİYİ, ONUN XOŞBƏXTLİYİ DAYANIR"

Xalqımız 2003-cü ildə 76,8 faiz səslə Cənab İlham Əliyevi özünə Prezident seçdi. 2003-cü il oktyabrın 1-də Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək, namizədliyini siyasi varisi Cənab İlham Əliyevin xeyrinə geri götürdüyünü elan edərkən bildirmişdi: "Üzümü Sizə - həmvətənlərimə tutaraq, qarşıdan gələn prezident seçkilərində prezidentliyə namizəd, mənim siyasi varisim, Yeni Azərbaycan Partiyası Sədrinin I müavini İlham Əliyevi dəstəkləməyə çağırıram. O, yüksək intellektli, praqmatik düşüncəli, müasir dünya siyasətini və iqtisadiyyatını gözəl bilən, enerjili və təşəbbüskar bir şəxsiyyətdir. Sizi əmin edirəm ki, həm İlham Əliyev, həm də Yeni Azərbaycan Partiyası bundan sonra da xalqımızın ən layiqli övladlarını öz ətrafında sıx birləşdirərək Azərbaycan dövlətinin inkişafı və xalqımızın firavanlığı yolunda çox işlər görəcəklər. İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Azərbaycan Prezidentinin yürütdüyü siyasətin məqsədyönlüyü, ardıcıllığı hər bir vətəndaşda gələcəyə daha da böyük inam və əminlik yaradıb. Prezident İlham Əliyev dövrün tələbi kimi qarşıda duran vəzifələri düzgün müəyyənləşdirib, həyata keçirdiyi islahatlarla inkişaf mexanizminin daha da çevikliyinə, işləkliyinə nail olub. Azərbaycan dünyanın ən sürətlə inkişaf edən, yeniləşən, müasirləşən, demokratikləşən dövlətinə çevrilib. Azərbaycanın uğurlu inkişafının təmin edilməsində və qarşıda duran bütün əsas vəzifələr uğurla icrasının təməlində düşünülmüş siyasət, həyata keçirilən islahatlar və dövlət proqramları dayanır. Regionların sosial-iqtisadi inkişafına dair dövlət proqramlarının qəbulu və qarşıya qoyulan vəzifələrin uğurlu icrası nəticəsində abadlaşan bölgələrimiz, inkişaf edən ölkəmiz Azərbaycanın dinamik inkişafının göstəriciləridir. Paytaxtla regionlar arasında inkişaf fərqini aradan qaldırmağa hesablanmış Regionların sosial-iqtisadi inkişafına dair Dövlət Proqramları bölgələrdə infrastrukturun yenilənməsi, rayonların simasının əhəmiyyətli dərəcədə müasirləşməsində mühüm rol oynayıb. Bölgələrdə istehsal müəssisələrinin dirçəlişi və yeni sənaye obyektlərinin yaradılması, yerli resurslardan istifadənin səmərəliliyinin artırılması, aqrar sektorun müxtəlif dəstək mexanizmləri və innovativ üsullarla inkişaf etdirilməsi, müasir infrastrukturun, yeni iş yerlərinin yaradılması dövlət proqramlarının reallaşdırılmasında əsas nailiyyətlər sırasında qeyd edilməlidir. Ümumilikdə 4 dövlət proqramı üzrə regionlara yatırılmış investisiyaların həcmi 104 milyard manat təşkil edir. 2004-cü ildən bəri regionlarda 1,8 milyondan çox yeni iş yeri və 52 mindən artıq yeni müəssisə yaradılıb. Statistik rəqəmlərə əsasən. 2004-cü ildən ölkədə 60-dan çox yeni elektrik stansiyası istismara verilib.

## AZƏRBAYCANIN UĞURLARI

Xarici siyasətdə rəhbərlik Azərbaycanın beynəlxalq mövqeyinin keyfiyyətcə yeni mərhələyə keçidini təmin etmişdir. Xarici siyasət xətti praqmatik dialoq, qarşılıqlı maraqlar və hüquqi çərçivələr üzərində qurulmuş, regional normallaşma proseslərində təşəbbüskar rolunu gücləndirmişdir. Azərbaycan, strateji tərəfdaşlıq və regional əməkdaşlıq təşəbbüslərində balanslı və qabaqlayıcı siyasət yürüdərək beynəlxalq nüfuzunu artırmışdır.

Balanslaşdırılmış diplomatik yanaşma Azərbaycanın regional siyasətdə etibarlı və proqnozlaşdırıla bilən tərəfdaş kimi mövqeyini möhkəmləndirmişdir. Enerji təhlükəsizliyi, nəqliyyat-kommunikasiya layihələri və regional əməkdaşlıq platformalarında nümayiş etdirilən siyasi iradə ölkənin regional təsir imkanlarını genişləndirmişdir. Bu təsir imkanları klassik güc balansına deyil, funksional əməkdaşlıq və strateji əlaqələndirmə qabiliyyətinə əsaslanır.

Azərbaycanın regional liderlik modeli siyasi rəhbərlik ilə formalaşaraq hegemonluq anlayışından fərqli məzmun kəsb edir. Bu model regional proseslərdə üstünlük nümayiş etdirməkdən daha çox, həmin proseslərin rasional şəkildə idarə olunmasına töhfə verməyi hədəfləyir. Liderlik güc tətbiqi deyil, siyasi məsuliyyət və təşəbbüskarlıq kimi təzahür edir. Azərbaycanın növbəti diplomatik uğuru - D-8 təşkilatına üzvlük ölkəmizin müstəqillik tarixində beynəlxalq diplomatik uğurlar sırasına daxil olan növbəti əlamətdar hadisə kimi yadda qalıb. Misirin paytaxtı Qahirə şəhərində İnkişaf etməkdə olan səkkiz ölkənin İqtisadi Əməkdaşlıq Təşkilatının (D-8) XI Sammiti zamanı Azərbaycan Respublikası yekdilliklə D-8 təşkilatının üzvü seçilib. Bu, D-8 yarandığı gündən təşkilatın sıralarının ilk genişlənməsi kimi əlamətdardır. Üç qitəni əhatə edən, 4 trilyon ABŞ dollardan artıq ÜDM-ə malik, 130 milyard ticarət dövriyyəsi həyata keçirən, üzvlərinin əhalisinin sayının ümumilikdə dünya müsəlmanlarının 60%-ni təşkil edən (ümumi əhali 1,2 milliardan artıqdır) və böyük iqtisadi potensiala malik "İslam Səkkizliyi" adlanan D-8-ə ölkəmizin üzvlüyü Azərbaycanın beynəlxalq aləmdə artan nüfuzunun və ölkəmizə olan etimadın bariz nümunəsidir. Bu, Prezident İlham Əliyevin qətiyyətli və uğurlu xarici siyasətinin məntiqi nəticəsidir. Müasir Azərbaycan Respublikasının memarı və qurucusu olan Ümummilli Lider Heydər Əliyev tərəfindən əsası qoyulmuş xarici siyasət strategiyası bu gün möhtərəm Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Prezident İlham Əliyev Azərbaycan dövlətinin inkişafında mühüm rol oynayan, həm qurucu, həm də islahatçı Liderdir. O, hadisələrin gedişatını dəyişməyə qadir, dövlətçilik fəaliyyətində milli maraqları ən yüksək məqsəd kimi qəbul edən və bütün gücünü bu məqsədə həsr edən dövlət başçısıdır. Prezident İlham Əliyev xalqının birmənalı şəkildə dəstəklədiyi və etimad göstərdiyi Lider olaraq Azərbaycanı yeni zirvələrə daşıyan strateji addımlar atır. Əldə olunan möhtəşəm nailiyyətlər Azərbaycanı güclü və qüdrətli dövlətə çevirib.

***Zümrüd BAYRAMOVA***

# Prezidentdən mühüm Sərəncam - PENSİYALAR ARTIRILDI

***2025-ci il üzrə orta aylıq əmək haqqının illik artım göstəricisinə uyğun olaraq bu il yanvarın 1-dən 9,3 faiz indeksləşdirilməklə artırılır. Bu barədə Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi məlumat yayıb.***

Prezident İlham Əliyevin yeni "Əmək pensiyalarının indeksləşdirilməsi haqqında" Sərəncamı ilə Nazirlik tərəfindən 2026-ci il yanvarın 1-dək təyin edilmiş bütün pensiyalar Dövlət Statistika Komitəsinin təqdim etdiyi məlumata əsasən artırılır. Bildirilib ki, bu artım pensiyaçıların müraciətinə və sənəd təqdim etmələrinə ehtiyac olmadan, elektron sistem üzərindən avtomatik şəraitdə həyata keçirilir: "Pensiyalara yanvar ayı üzrə edilmiş artımlar fevral ayının pensiyası ilə birgə ödəniləcək. Yəni pensiyaçılar artıq fevral ayının pensiyasını yeni artımla, habelə yanvar ayının pensiyasına edilmiş artım məbləği ilə birgə alacaqlar. Pensiyaların indeksləşdirilərək artırılması bütün pensiyaçılara (o cümlədən pensiyaçı olan hərbi qulluqçular, hüquq-mühafizə orqanları əməkdaşları və b.), yəni, 1,1 milyon pensiyaçıya şamil olunur və bu artımlar üçün illik əlavə 640 milyon manat vəsait ayrılıb".

Həmçinin qeyd edilib ki, dövlət başçısının Sərəncamı ilə sığortaolunanların fərdi hesablarında 2026-cı il yanvarın 1-dək qeydə alınmış pensiya kapitalları da istehlak qiymətləri indeksinin ötən il üzrə illik səviyyəsinə uyğun olaraq 5,6 faiz indeksləşdiriləcək artırılır. "Hər ilin əvvəlində tətbiq edilən bu artım sosial sığorta sistemində iştirak edən şəxslərin pensiya kapitallarının yalnız onların əməkhaqlarından sosial sığorta ayırmaları hesabına deyil, dövlət tərəfindən də hər il indeksləşdirilərək artırıldığını göstərir", - deyə məlumatda vurğulanıb.



# Qlobal təhdidlər və Azərbaycan dövlətçiliyi üçün təhlükəsizlik məsələsi

## Mürəkkəb qlobal və geosiyasi təlatümlərdən ölkəmizi qoruyan sistemlər necə işləyir?

***Son dövrlərdə dünyada baş verən hadisələr və gedən proseslər əksər ölkələr üçün müxtəlif problemlər yaradır. Bəzilərinə siyasi, bəzilərinə iqtisadi, bəzilərinə sosial, bəzilərinə isə hərbi cəhətdən ciddi təhlükələr yaranır. Bəzi qlobal qüvvələr tərəfindən aparılan bu siyasət iqtisadi cəhətdən zəif, həmçinin təhlükəsizlik cəhətdən vəziyyəti güclü olmayan ölkələri xüsusilə təhdid edir.***

Müxtəlif ölkələrdə baş verən qarışıqlıqlar, terror hadisələri, vətəndaş müharibələri, iqtisadi tənəzzül kimi faktorlar buna əyani sübutdur. Elə son dövrlərdə Azərbaycanın qonşuluğunda yerləşən ölkələrdə (Gürcüstan, Ukrayna, Suriya, İran və s.) baş verənlər göstərir ki, dövlətlərin xarici və daxili təhdidlərə qarşı müqavimət gücü zəif olanda ciddi problemlər baş verir.

Azərbaycan bu cəhətdən ən təhlükəsiz ölkələrdən sayılır, baxmayaraq ki, ölkəmiz çox çətin və gərgin bir regionda yerləşir. Lakin mahir siyasətçi, güclü strateq kimi dünyada öz sözünü demiş və dünya liderlərindən biri kimi beynəlxalq aləmdə nüfuz qazanmış Prezident İlham Əliyevin rəhbərlik etdiyi dövlətimizin apardığı daxili və xarici siyasət belə bir çətin regionda və mürəkkəb vəziyyətdə dövlətçiliyin qorunması və milli təhlükəsizliyin təmin olunmasına imkan verib.

Milli və dövlət təhlükəsizliyinin təmin olunması üçün əsas faktorlar iqtisadi güc, daxili sabitlik, milli həmrəylik, güclü ordu, təhlükəsizlik və hüquq mühafizə orqanlarıdır. Bütün bu sahələrdə Azərbaycanda çox ciddi bir üstünlük var

### Təhlükəsizlik orqanları dövlətin və xalqın qarantı kimi

Dünyanın əksər ölkələrində tez-tez baş verən terror aktlarına, silahlı qarşıdurmalara, kütləvi iğtişaşlara, ciddi kriminal hadisələrə Azərbaycanda demək olar ki rast gəlinmir. Bu o demək deyil ki, bizdə belə cəhdlər olmur. Əlbəttə olur. Hər bir ölkənin düşmənləri var, orada problem yaratmaq istəyən qüvvələr var. Və onlar həmin ölkəyə təzyiq etmək, nəyisə əldə etmək üçün müxtəlif hadisələr törətməyə çalışırlar. Lakin təhlükəsizlik orqanlarımız bu planların qarşısını vaxtında alır və təhlükəsizliyi təmin edirlər. Təsadüfi deyil ki, ölkəmizə gələn turistlərin hamısı deyir ki, Azərbaycan dünyada ən təhlükəsiz ölkələrdən biridir. Bu isə Dövlət Təhlükəsizliyi Xidmətinin peşəkar və məsuliyyətli fəaliyyətinin konkret nəticəsidir.

Xarici təhdidlərə qarşı ölkə sərhədlərinin də yaxşı qorunması vacibdir və bu sahədə də tam arxayınlıq var. Sərhəd qoşunları ölkəmizin sərhədlərini etibarlı şəkildə qoruyur və ölkəmizə problem yaratmaq istəyənlərə imkan vermir.

Daxili təhlükəsizliyin qorunmasında Daxili İşlər Nazirliyinin özünəməxsus payı var. Ölkədə ictimai asayişin, sabitliyin təmin olunması üçün polis orqanları fədakarlıqla iş aparır. Cinayət cəhdlərinin bir çoxunun vaxtında qarşısı alınır, bir çoxu isə baş verən kimi operativ müdaxilə edilir və ictimai təhlükəsizlik təmin olunur. Polis orqanlarından vətəndaşların razılığı da bunu aydın göstərir ki, əhali və polis arasında bağlar getdikcə güclənir. Son illərdə DİN-in həm də geniş maarifçlik kampaniyası aparması cəmiyyətdə çox müsbət qarşılaşır.



Hüquq-mühafizə sistemi bununla da məhdudlaşmır. Hakimiyyətin 3 əsas qolundan biri olan məhkəmə sistemi hüquqi dövlətin yaradılması üçün ən vacib faktorlardan biridir. Əvvəllər məhkəmələrin qərarlarından narazı olanlara çox rast gəlinirdi. Son dövrlərdə isə hər yerdə məhkəmələrin, hakimlərin ədalətli və mümkün qədər humanist qərarlar çıxarması hamı tərəfindən etiraf olunur- hətta məhkəməni uduzanlar tərəfindən belə. Vətəndaşların hüquqlarının qorunması vətəndaşlarla dövlət arasında münasibətləri daha da gücləndirir.

### Güclü ordu güclü dövlətin qarantıdır

Azərbaycanın üstünlüklərindən biri də güclü orduya malik olmasıdır. 30 ildən artıq bir müddətdə Ermənistan işğalı altında qalan ərazilərimizin qısa müddətdə azad olunması ordumuzun gücünü bütün dünyaya göstərdi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin birbaşa komandanlığı ilə Azərbaycan Ordusu bütün işğal olunmuş əraziləri ay yarım ərzində azad edərək tarix yazdı. Təsadüfi deyil ki, beynəlxalq reytinqlərdə Azərbaycan Ordusu dünyanın və regionumuzun ən güclü orduları sırasındadır. Azərbaycan xalqı və dövləti özünün təhlükəsizliyini təmin edə biləcək gücdə olan orduya malik olması ilə fəxr edir. Bu ordunun azad etdiyi torpaqlarımızda indi həyat qaynayır. Dağıdılmış şəhərlər və kəndlər yenidən tikilir, yollar çəkilir, bölgə sürətlə abadlaşır. İnsanlarımız tarixi yurdlarına qayıdır.

Prezident İlham Əliyev əbəs yerə demirdi ki, güclü iqtisadiyyat və güclü ordu ölkənin ən böyük dayaqlarındandır. İlk növbədə ölkə iqtisadiyyatını inkişaf etdirən dövlət başçısı bu imkanlardan istifadə edib güclü bir ordu yaratdı və artıq Azərbaycan qüdrətli orduya və güclü təhlükəsizlik sisteminə malikdir.

Əhalimizin vətənpərvər ruhda olması, gənclərimizin dövlətçilik ruhunda və milli-mənəvi dəyərlərimiz əsasında formalaşması dövlətin əsas vəzifəsidir və bu iqtiqamətdə də ən yüksək səviyyədə siyasi iradə ortaya qoyulub. Bunu müharibə dövründə səfərbərlik xidmətinə axışan yüz minlərlə gəncimizi seyr edərkən daha aydın gördük.

### İqtisadiyyat milli və dövlət təhlükəsizliyinin əsaslarından biri kimi

Ölkəmiz iqtisadi və maliyyə cəhətdən güclü mövqeyə malikdir. İqtisadi müstəqilliyin təmin olunması və ciddi maliyyə ehtiyatlarının varlığı ölkənin iqtisadi təzyiqlər qarşısında müdafiə qabiliyyətini möhkəmləndirir. Təkcə onu qeyd etmək kifayətdir ki, ölkəmizin strateji maliyyə ehtiyatları 85 milyard dollar təşkil edir- bu da maliyyə və iqtisadi təhlükəsizliyi təmin edən əsas faktorlardan biridir. Həmçinin, son dövrlərdə enerji sektorunda, qlobal nəqliyyat dəhlizlərinin qovşağına çevrilmə sahəsində, həmçinin qeyri-neft sektorunda əldə olunan uğurlar ölkəmizin iqtisadi cəhətdən inkişafına və güclənməsinə imkan verib. Əgər əvvəllər ÜDM-in, dövlət büdcəsinin 70-75 faizini neft sektoru təşkil edirdisə, son illərdə bu nisbət tam tərsinə dəyişib. İndi həm ÜDM-də həm də dövlət büdcəsində əsas gəlirlər qeyi neft sektorundan əldə olunur. Buna paralel olaraq ölkədə sosial sahədə də irəliləyişlər əldə olunub. Dövlət büdcəsinin 40 faizdən çoxu sosial sahəyə ayrılır. Yoxsulluq və işsizlik minimum səviyyələrə endirilib. Milyonlarla insana sosial müavinətlər verilir, aztəminatlı ailəyə müxtəlif güzəştlər tətbiq olunur. Yüz minlərlə vətəndaşa (əsasən qaçqın və köçkünlər olmaqla) mənzillər, müharibə veteranlarına avtomobillər dövlət tərəfindən pulsuz verilir. Azərbaycan sosial dövlət prinsipini əsas götürüb və bu istiqamətdə siyasət yeridir. Getdikcə artan iqtisadi imkanlar sosial sahədə də öz sözünü deyir və sosial rifahın artması üçün əsas bazadır.

### Milli və dövlət təhlükəsizliyinin ideoloji bazası

Dünyanın bugünkü mənzərəsi çox gərgindir və belə mürəkkəb bir dövrdə ölkələrin təhlükəsizliyi həmin ölkələri idarə edən rəhbərlərin və siyasi hakimiyyətin məharətindən çox asılıdır. Dünyanın mənzərəsinə baxdıqda aydın görürük ki, bir çox ölkələr üçün necə təhlükələr yaranır. Lakin biz bunlardan sığortalanmışıq. Azərbaycanın taleyi etibarlı əllərdədir. Ümumilli lider Heydər Əlyev tərəfindən Azərbaycançılıq ideologiyası bazasında qurulmuş möhkəm dövlət sistemi onun layiqli siyasi varisi Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilərək ölkəmizin və xalqımızın təhlükəsizliyini və inkişafını təmin edir.

Müxtəlif etnik qrupların və dini konfessiyaların mehriban yaşadığı Azərbaycan dünyada tolerantlıq məkanı kimi tanınır. Etnik mənşəyindən, dini mənsubiyyətindən asılı olmayaraq hər kəs özünü Azərbaycanlı sayır və Azərbaycan dövlətinin qorunması üçün çalışır. Ölkəmizdə təmin olunmuş azadlıqlar bütün vətəndaşların dövlət tərəfindən qorunmasını təmin edir. Hüquqi dövlət, güclü ölkə, sağlam cəmiyyət əsas məqsədlərdir. Bu məqsədlərin təmin olunması üçün hər kəs əlindən gələni etməlidir. Bu halda bizi üfüqdə böyük və parlaq gələcək gözləyir. Və bu gələcəyi də inşallah hamımız görəcəyik. Ümummilli lider Heydər Əiyevin sözləri ilə desək- "Azərbaycan dünyaya Günəş kimi doğacaq!".

***Elçin Bayramlı***



# Cibdə “bomba”: şəxsi məlumatlar smartfonda niyə təhlükəlidir?

***Bugünkü dünyada smartfonlarımız həyatımızın mərkəzindədir - mesajlaşmadan tutmuş bank əməliyyatlarına, foto və sənədlər saxlamağa qədər hər şey telefonlarımızda olur. Lakin hər mobil yaddaş təhlükəsiz deyil. Telefonlara düzgün yanaşmadıqda şəxsi və maliyyə məlumatlarımızı riskə atmış oluruq - bu məlumatlar oğurlana, sui-istifadə edilə, şəxsiyyət oğurluğu və maliyyə fırıldaqlarına yol aça bilər. SİA mövzu ilə bağlı araşdırma edib.***

### Telefonunuzda saxlandıqda risk yaradan əsas məlumatlar

*Şəxsi sənədlərin şəkilləri*

Pasport, şəxsiyyət vəsiqəsi, sürücülük vəsiqəsi, VÖEN, bank kartının şəkli kimi sənədlər çox kritik məlumatlar daşıyır (ad, doğum tarixi, nömrə və s.).

Bu cür şəkillər hakerlər və fırıldaqçılar üçün ”xəzinə”dir - onlar bu məlumatlarla kimliyinizlə saxta hesablar aça, bank əməliyyatları həyata keçirə, kreditlər götürə bilərlər. Belə sənədləri telefonda çəkmək belə təhlükəli hesab edilir.

### Maliyyə məlumatları və bank PIN-ləri

Bank hesab nömrələri, kart nömrələri, PIN-lər, mobil bank tətbiqlərində açıq giriş məlumatları - bunlar telefondakı əsas hədəflərdən biridir.

Əgər telefonunuz kimsənin əlinə keçərsə, bu məlumatlar vasitəsilə hesabınıza asanlıqla girilə bilər.

Tövsiyə: PIN- və şifrə kimi həssas məlumatları şifrə meneceri tətbiqlərində saxlayın (bu tətbiqlər əsas təhlükəsizlik standartlarına cavab verir).

### Məhrəm və intim fotoşəkillər

Telefon itdikdə və ya zərərli proqram daxil olduqda bu şəkillər qara poçt və şantaj üçün istifadə oluna bilər. Bu tip şəkillər yalnız telefon yaddaşında deyil - buludda da saxlanarkən təhlükə yarada bilər.

### Şifrələr, parollar və hesab məlumatları

Simsiz şəkildə yazılmış şifrələr (yaddaşda not kimi saxlanmış) çox risklidir - kimsə cihazınıza girə bilsə, bu şifrələrlə bütün onlayn hesablarınıza daxil ola bilər.

Şifrələri telefona yazmaq əvəzinə, güclü parol meneceri istifadə etmək daha təhlükəsizdir.

### İş və korporativ məlumatlar

Əgər şəxsi telefonunuzda işə aid məxfi sənədlər, layihələr və ya məlumatlar varsa, onların sızması həm sizin, həm də iş yerinizin zərərinə ola bilər.

### Ünvan, əlaqə siyahısı və şəxsi qeyd məlumatları

Telefon kontaktlarınızda ev ünvanları və ailə üzvlərinin məlumatları varsa, bu məlumatlar fırıldaqçılar tərəfindən sosial mühəndislik (phishing) hücumları üçün istifadə edilə bilər.

### Telefonun özündə və buludda saxlanma - risk necə yaranır?

Telefonun itməsi və oğurlanması: Cihaz fiziki olaraq əldən çıxanda içindəki məlumatlar da təhlükə altındadır - xüsusilə şifrə və biometrik yoxlama zəifdirsə.

Zərərli proqramlar və hacker hücumları: Malware və spyware tətbiqləri telefonunuza gizli yüklənərək foto, sənəd və mesajlarınıza giriş əldə edə bilər.

### Təhlükəsizliyiniz üçün tövsiyələr

-Telefon parolunu güclü və unikal edin (rəqəm + hərf).

-2-faktorlu təsdiqi aktiv edin (SMS və ya autentifikator tətbiqi).

-Mümkünsə şifrələnmiş qovluqlar və ya təhlükəsizlik tətbiqlərindən istifadə edin.

-Sənədləri telefonda deyil - fiziki qovluqda və ya təhlükəsiz buludda saxlayın.

-Şübhəli linklərə klik etməyin və qeyri-rəsmi tətbiqlərdən uzaq durun.

Smartfon həyatımızı asanlaşdırır, amma onun yaddaşında saxladığımız bəzi məlumatlar şəxsi və maliyyə təhlükəsizliyi üçün böyük risk yarada bilər. Sənəd şəkillərindən tutmuş şifrələrə qədər bütün bu məlumatları ehtiyatla idarə etmək və lazım olduqda yığcam, təhlükəsizliklə qorunan üsullardan istifadə etmək vacibdir.

***Ayşən Vəli***

# Uşaqları insanlardan qoruyaq!

Nəhayət, məlum oldu ki, indiyədək uşaqları qorumaq haqqında düşüncələrimiz yanlış imiş. Biz belə fikirləşirdik ki, uşaqları mükəmməl olmayan bağça və məktəblərdən, yaşına uyğun olmayan cizgi və digər filmlərdən, kompyuter və telefondan, küçə heyvanları təhlükəsindən, maşın qəzasından, hündür yerdən yıxılmaqdan, xəsarət alacaqları müxtəlif oyunlardan və sair onlarla belə fiziki və mənəvi zərər görə biləcəkləri hallardan qorumalıyıq. Ki, onlar sağlam bədənlə, sağlam ruhla böyüsünlər.

Lakin təəssüf ki, indiyədək fikirləşdiklərimizn hamısı yanlış imiş. Biz uşaqları sadəcə insanlardan qorumalıyımışıq: öncə onları dünyaya gətirən özümüzdən. Hələ onlar dünyaya gəlməmişdən doğum günlərini ata-anasının, nənə-babasının doğum günü ilə üst-üstə salmaq üçün doğulacağı günü müəyyən etməyimizdən, onlara yaradan tərəfindən verilən günə, saata, bürcə müdaxilə etməyimizdən qorumalıyıq uşaqları. Gözlərini dünyaya açdıqları ilk gündən Allah tərəfindən verilən ruzilərini bədən quruluşumuzun pozulacağına qurban verməyimizdən qorumalıyıq. Onların qarnına tərkibini bilmədiyimiz süni qidaları tökərkən bir dəfə deyil, bir neçə dəfə fikirləşməliyik.

Əllərinə telefonu da biz veririk, kompyuter qarşısında saatlarla oturmalarının da günahkarı bizik. Biz özümüzü necə aparırıqsa, onlar da bizdən görüb, götürürlər. Özümüz əlimizdən telefonu yerı qoymayanda, təbii ki, uşaq da onu təkrar etmək istəyəcək. Biz kompyuter qarşısından saatlarla qalxmayanda uşağın da marağına səbəb olacaq ki, görəsən orada nə var? Hələ yemək yemələri üçün əllərinə telefon verib xarici cizgi filmlərini izlətməyimizi, ağzını qeyri-ixtiyarı açdığını, yeməyin ləzzətini duymadığını, sadəcə əlindən telefonu almayaq deyə yediyini də vurğulayım, çünki bunu da biz edirik, düşünmədən, analiz etmədən...

Uşaqların sakit dayansınlar deyə, əllərinə verdiyimiz telefonda nəyə baxdıqlarına diqqət edirikmi? Kompyuter oyunlarında nəyi əxz etdiklərini düşünürükmü? Otaqlarından evi bürüyən dəhşət və vəhşət dolu səslərin ardınca gedib övladımızın nəyə baxdığını araşdırırıqmı? Pul verib göndərdiyimiz ”pleyteyşın”larda necə, nəyi mənimsəyib evimizə qayıtdığının fərqində oluruqmu?

Uşaqlarla son dəfə birlikdə vaxt keçirdiyini xatırlamayan valideynlər var. Onlara bir səhifə nağıl oxumayan, yarın saat söhbət etməyən, oyun oynamayan, gəzintiyə çıxmayan, çıxanda belə suallarını cavablandırmaq istəməyən valideynləri olan özümüzdən qorumalıyıq onları.

Pis dostlardan, rəfiqələrdən, sinif, tələbə yoldaşlarından, ailəmizdə həyat yoldaşımızla etdiyimiz davalardan, uşaqların eşitməyəcəyi söhbətlərdən, görməyəcəyi hadisələrdən qorumalıyıq.

Bax, sadaladıqlarımın hər birinin mərkəzində insan dayanır: valideyn, nənə, baba, dost, rəfiqə, istehsalçı və ağlımıza gətirmədimiz digər insanlar. Övladlarımızı siqaret çəkməyə, narkomaniyaya sürükləyən insanlar. ”Epşteyn sənədləri”nin üzə çıxardığı, özlərinə cənnət yaradıb burada uşaqlara həyatı cəhənnəm edən insanlar, onların qanına susayan, hüceyrəsnə göz dikən, orqanlarından pay uman insanlar. Bağ-



çalardan, məktəblərdən uşaqları yoxa çıxaran, müharibə ərazilərindən uşaqları alaq otu kimi arıtlayan, onların göz yaşını, fəryadını gənclik eliksiri kimi ciyərinə çəkən insanlar...

Deməli, biz uşaqları yalnız insanlardan qorumalıyıq. Bəzən bir heyvanın ona verə biləcəyi zərərdən, oyunda ala biləcəyi zərbədən, maşında keçirəcəyi qəzadan daha ağırını insan verir uşaqlara. İt dişləyər, bu, ötər, uşaq sağalar. Oyunda zədə alar, zaman keçər, sağalar. Maşın qəzasına uğrayar, müalicə alar, sağalar. Hündür yerdən yıxılar, zədə alar, sağalar. Bəs sağalmayan yaraları onların həyatında kim açır. Əlbəttə ki, insan. Ona həm çox yaxın, həm də çox uzaq olan insan. Ona qarşı zorakılığı bəzən ana, ata da edir, dünyanın o biri başındakı insanlar da. Onun gözündən yaşın axmasına doğması da səbəb olur, tanımadığı yadlar da. Həyatını travma qaynağına hər gün gördüyü insan da çevirir, heç tanımadığı insan da.

Odur ki, uşaqları insanlardan qorumaq tək çıxış yoludur. Biz insanları hər gün bir az da yaxından tanıyırıqsa, onların özlərini bütün dəyərlərdən yüksəkdə hiss etdiklərini görürüksə, bəli, uşaqları məhz onlardan qoruyaq-onlara zərər verəcək bütün insanlardan. O insanların içərisində özümüz birinciyik. Uşaqları özümüzdən qoruyaq ki, sonrakı mərhələlərdə onlar özləri özlərini insanlardan qoruya bilsinlər.

***Mətanət Məmmədova***

# Tramp müavinini Bakıya göndərdi - bölgədə nələr dəyişəcək?

## Mətləb Salahov: "Ceyms Vensin səfəri İrəvandan başlasa da, son nöqtə Bakıda qoyulacaq"



“ABŞ Vitse -prezidenti Ceyms Vensin Qafqaza başlayan səfəri bölgənin köklü dəyişikliklər astanasında olmasına işarədir. Nəzərə alsaq ki, artıq TRIPP layihəsinin reallaşması an məsələsidir, üstəgəl Donald Tramp Administrasiyasının birbaşa iştirakı və dəstəyi ilə Azərbaycan və Ermənistan arasında 30 ildən sonra sürətlə reallaşan inteqrasiya prosesi baş tutub, onda bu səfərin bölgədəki ölkələr arasında infrastruktur layihələr üçün açar xarakteri daşıdığı qaçılmazdır. Mən deyərdim ki, ABŞ Vitse -prezidentinin Qafqaza səfəri Moskva və Tehranın da ”yuxusuna haram qatıb”. Çünki bölgənin hər iki güclü dövləti Vaşinqtonun ”Qafqaz planı”nın nə ilə nəticələnəcəyini həm qorxu, həm də maraqla izləyirlər.”

Bu fikirləri SİA-ya açıqlamasında jurnalist-ekspert Mətləb Salahov bildirib. O qeyd edib ki, Donald Tramp öz müavinini bölgəyə göndərməklə həm də Cənubi Qafqazda rəsmi Vaşinqtonun mövqelərini gücləndirmək, hətta əsrlərdir Rusiyanın maraq və təsir dairəsində olan Cənubi Qafqazın artıq ABŞ-ın himayəsi altına girməsi üçün sürətlə işlər görməyi hədəfləyir. ”Əlbəttə, İrəvanda Nikol Paşinyan hakimiyyətinə güclü dəstək olmaq, parlament seçkiləri ərəfəsində D.Trampın ”əla oğlan” dediyi hazırkı baş nazirin mövqelərini gücləndirmək və onu Rusiyanın zərbələrindən qorumaq üçün Amerikanın ikinci şəxsinin öncə İrəvana getməsi başadüşüləndir. Lakin bu səfər zamanı Azərbaycan və Ermənistan arasında yekun sülh sazişinin imzalanması üçün son dəqiqləşdirmələrin aparılması da gözlənilləndir. Anlaşılan odur ki, son nəticə Bakıda müzakirə olunacaq”.

***Afət Tahirqızı***

# Xıdır İlyas və ya Xıdır Nəbi mərasimi



**XIDIR NƏBİ, XAN İLYAS, AÇDI ÇİÇƏK, GƏLDİ YAZ**

Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan biri də Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan mərasimdir. Bu bayram bir-birindən cüzi fərqlərlə demək olar ki, Azərbaycanın bütün bölgələrində keçirilir. Xıdır İlyas adətən, təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. təbii proseslərlə müşayiət edilir. Tədqiqatlarda Xıdır Nəbi bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur. Xızır peyğəmbərlə eyniləşdirilir. Xalqımız tarix boyu öz adət-ənənələrini qoruyub saxlamış, ən çətin zamanlarda belə milli dəyərlərinə sahib çıxmışdır. Çoxəsrlik tarixində özünəməxsusluğu qoruyub saxlaya bilmişdir. Bu gün həmin dəyərlərin fonunda Azərbaycan xalqı öz tarixi keçmişinə söykənərək milli-mənəvi dəyərləri, ənənələri, əxlaqi keyfiyyətləri ilə dünya xalqları arasında seçilir və diqqəti çəkir. Əlbəttə ki, hər bir xalqın özünəməxsus dəyərləri, keyfiyyətləri mövcuddur və onları yaşatmağa çalışır. Zəngin irsə malik olan Azərbaycanda keçirilən bayramlar da xalqın genetik yaddaşından süzülüb gələrək, onun milli-mənəvi dəyərlərini əks etdirir. Azərbaycan mənəvi mədəniyyətinin tərkib hissəsi olan bayramlar xalqımızın həyatında mühüm yer tutur. Qədim tarixi özündə ehtiva edən Azərbaycan xalqının məişətində mövcud olan bir çox bayramların tarixi qədimdir və onların başlanğıcı eramızdan əvvəlki minilliklərə söykənir. Məlumdur ki, bayramlar öz məzmununa görə dini və dünyəvi bayramlara bölünür. Azərbaycanda Ramazan bayramı, Qurban bayramı kimi dini bayramlarla yanaşı, dünya xalqları ilə bərabər olaraq qeyd etdiyi bayramlara da təsadüf olunur.

Qədim tarixə malik olan və el arasında geniş yayılmış bayramlardan olan Xıdır İlyas və ya Xıdır Nəbi adlandırılan bayram Azərbaycanda Xızır Nəbi bayramı, Təbriz ətrafındakı Qızılbaşlar zümrəsində isə yenə də Xızır Nəbi bayramı adı ilə tanınır. Bu bayram Azərbaycanın demək olar ki, bütün bölgələrində keçirilir. Naxçıvanda, eləcə də Laçın, Qubadlı, Zəngilan, Kəlbəcər, Cəbrayıl və Füzuli rayonlarında təntənəli şəkildə qeyd olunub. Mənbələrdə göstərilir ki, rus tədqiqatçısı T.F.Aristova Laçın, Qubadlı və Zəngilan rayonlarında bu bayramın qeyd edilməsi prosesləri haqqında maraqlı məlumat verir. Qeyd edir ki, qışın ortalarında keçirilən bu bayramda azərbaycanlı qadınlar ailəsinin salamatlığı üçün sacda qovurğa qovurar, çay və bulaq kənarında müxtəlif rənglərlə bir neçə yumurta qoyaraq niyyət edirdilər. Ertəsi gün yumurtalara baxırdılar. Əgər yumurta qırmızı rəngə boyanmışdırsa yaxşı, qara boyanırdısa pis əlamət yozurdular.

Xıdır İlyas adətən, təbiətin oyanması, otların cücərməsi, axar suyun təmizlənməsi və s. təbii proseslərlə müşayiət edilir. Tədqiqatlarda Xıdır Nəbi bir şəxsiyyət olaraq "suyun, külək və havanın himayəçisi" kimi təqdim olunur. Qeyd edim ki, Xızır Nəbi bayramı Novruz bayramından əvvəl keçirilir. Bu bayramın keçirilməsi kiçik çilləyə təsadüf edilir. Bayramın tarixi günü ilə bağlı tədqiqatçılar, folklorşünas alimlər müxtəlif fikirlər irəli sürürlər. Bəzi mənbələrdə həmin bayramın kiçik çillənin qurtarmasına 2-5 gün qalmış, bəzilərində həmin mərasimin kiçik çillənin onuncu günündə, bəzilərində isə böyük çillədən dörd və kiçik çillədən üç gün olmaqla yeddi gün ərizində keçirildiyinə təsadüf edirik. Azərbaycanın xalq yazıçısı Əzizə Cəfərzadə isə "Xıdır İlyas" mərasiminin kiçik çillənin qurtardığı son üç gündə keçirildiyini göstərir. Başqa bir mənbədə isə Xıdır Nəbi bayramının fevralın 12-dən 20-dək keçirildiyi qeyd olunur.

Xoşbəxtlik, ruzi, arzuların simvolu olaraq qeyd olunan bayramın kiçik çillənin çıxması münasibətilə keçirilməsi həm də qədim əkinçilik görüşləri ilə əlaqədardır.

Xıdır İlyas mərasiminə xüsusi hazırlaşırdılar. Xalq arasında belə inam vardır ki, əgər Xıdır Nəbi Boz atında gələrkən evlərdə bayram əhval-ruhiyyəsi görməzsə küsüb gedirdi. Xıdırın küsüb getməsi isə ruzi-bərəkətin yox olmasına səbəb olar, baharın gəlməsi gecikər. Buna görə də hələ kiçik çillənin birinci günündən başlayaraq bayram tədarükü görülürdü.

Üç gündən ibarət olan Xıdır Nəbi bayramının birinci günü torpaq tərif olunardı. Torpağın üstündə od qalanardı ki, torpağın nəfəsi qızınsın. Bağlar təmizlənər, çör-çöp, xəzəl yığılıb yandırılardı. Bayramın ikinci günü evdəki hər öküzün adına üç duzsüz kömbə bişirilib öküzlərin qarnının altından diyirləyər və oxuyardılar:

**Xıdır Nəbi, xan İlyas,**
**Açdı çiçək, gəldi yaz.**
**Mən Xıdırın quluyam,**
**Boz atının çuluyam.**

Bayramın üçüncü günü cütçü və əkinçinin şəxsində torpağı becərən, şum şumlayan, əkin əkən əməkçilər tərif olunardı. Boz at üzərində gələcək Xıdır Nəbinin əlində od olacağı güman edilərdi. Onun torpağı isidəcəyi, odla yanaşı günəş və suyun adamlara sağlamlıq gətirəcəyi düşünülərdi. Mərasimdə əkinçi, cütçü və sayaçı nəğmələri oxunar, "Xıdır Nəbi"yə nəğmələr, şeirlər qoşulardı. Bayramın hər üç günündə cavanlar əkin yerlərindən keçib Xıdır Nəbini axtarmağa gedərdilər. Onlara "Xıdırçı" deyərmişlər. Xıdırçılar hava işıqlanmazdan əvvəl əllərində şam Xızırın dalınca gedər və nəğmələr oxuyardılar.

**XIDIR NƏBİ MƏRASİMİ MİFİK OBRAZIN MÖVCUDLUĞUNU YADDAŞLARDA MÖHKƏMLƏNDİRİR**

Bayramın atributu isə qovrulmuş buğda və qovuddur. Bundan başqa digər paxlalı bitkilər, çərəz də mütləq süfrəyə qoyulmalıdır. Xəşil də ki, öz qaydası ilə. Ümumiyyətlə, qışda keçirilən bayramların hamısında bu xörək növü hazırlanır. Bayramda daha çox sevinən uşaqlardır. Xıdır Nəbi günü, Novruzda olduğu kimi, uşaqlar qapı-qapı gəzib papaq atırlar. Axşam şər qarışanda isə cavanlar və uşaqlar dəstələnib evləri qapı-qapı gəzərək "Xıdır" nəğməsini oxuyar və bayram payı yığardılar. Hansı qapıdan içəri girsələr, əvvəlcə dəstədən bir adam irəli çıxıb avazla oxuyardılar:

**Mən Xıdırın quluyam,**
**Göy atının çuluyam.**
**Ağzının arpasıyam**
**Ayağının nalıyam.**

Toplanan pay isə bərabər şəkildə bölünürdü. Bundan başqa həmin gün yükün altına qovud qoyarlar. Xalq inanclarına görə, əfsanəvi Xızır Peyğəmbər gəlib bu qovuda toxunarsa, həmin il o evdə ruzi-bərəkət olar. Bunu bilmək üçünsə ev sahibi səhər ertədən qovudun üzərində Xızırın atının izini axtarır. Hər hansı bir işarə varsa, deməli, niyyəti baş tutub.

Azərbaycan folklorunda Xızırla bağlı inamlar da sayca üstünlük təşkil edir. "Xıdır payı"ndan ertəsi günü yağla kömbə bişirər, qovut çəkilər və dəstənin üzvləri arasında bölünərdi. "Xıdır Nəbi" bayramında yumurta döyüşdürülürdü. Hansı yumurta sınsa, sahibi uduzmuş hesab olunurdu. Bu bayramda qapıpusma mərasimi də keçirilirdi. Qulaqları barmaqla yumaraq niyyət tutur və "filan evə qapı pusmağa gedirəm"- deyilərdi. Həmin qapıya çatanda qulağı açar, niyyəti eşitdiyi ilk sözlə sınayardılar. Qovurğanı məcməyiyə yayıb boş otaqda səhərədək saxlayardılar. Əgər səhər qovurğanın üzərində əl izləri görünsəydi, deməli, Xıdır İlyas o evə gəlmişdi, həmin il ailə üçün xoşbəxt il olardı.

Bütün bunlar göstərir ki, Xıdır Nəbi mərasimi xalq bayramı olmaqla yanaşı, həm də mifik bir obrazın - Xıdır İlyasın mövcudluğunu, mərasimlərdə şəxsən iştirak etdiyi barədə fikri yaddaşlarda möhkəmləndirir.

***Nəzakət ƏLƏDDİNQIZI***



Elçin Bayramlı

# Psixotron müharibə: silahlı uşaqlar silahsız cəmiyyətə qarşı

***Bakıda fəaliyyət göstərən "İdrak" litseyində baş verən qanlı hadisə cəmiyyətdə ciddi müzakirələrə səbəb olub. Bir şagirdin məktəbə odlu silah gətirərək müəllimi güllələməsi şok effekti yaradıb.***

Təəssüf ki, cəmiyyətdə uşaq aqressivliyinin və kriminallığının səsviyyəsi sürətlə artır. Bu, uşaq tərbiyəsində çox ciddi problemlərin olduğunu göstərir. Biz cəmiyyət olaraq tərbiyə məsələsini arxa plana atmışıq. Bu vəziyyət üç əsas faktorla bağlıdır: ailə, məktəb və ətraf mühit. Hər üçündə də vəziyyət acınacaqlıdır.

Bəzi psixoloqlar ailələrə 'uşaqlara azadlıq, sərbəstlik verin, qoyun nə istəyirlər etsinlər' deyərək onları tam sərbəst buraxmağı təbliğ edir. Nəticədə uşaqlar həm real, həm də virtual aləmdə tam nəzarətsiz qalır. Valideynlər tərəfindən azyaşlıların əlinə internetə bağlı olan smartfon verilir və onların bu nəzarətsiz məkanda hər cür materiala baxmasına icazə verilir ki, bu da onları psixotron terrora məruz qoyur.

Mən uzun illərdir ki, təklif edirəm ki, 16 yaşa qədər uşaqlara smartfon verilməsin. Artıq bir çox ölkələrdə bu qadağalar tətbiq olunur. Əlaqə üçün sadə, internetə çıxışı olmayan telefonlar kifayətdir. İnternet isə yalnız evdə və ya məktəbdə valideyn və ya müəllim nəzarəti ilə faydalı məlumatlar üçün istifadə edilməlidir.

Həmçinin, uşaqların aqerssiv xarakterli, qanlı-qırğınlı komputer oyunlarından aralı saxlamaq lazımdır. Bir çox uşaqlar hətta zombi oyunları oynayırlar ki, bu da onların psixologiyasının pozulmasına və vəhşiləşməsinə səbəb olur. Uşaqların alt şüuruna yerləşən və onların xarakterini ciddi şəkildə formalaşdıran bu materiallar onları mənəvi-əxlaqi cəhətdən məhvə sürükləyir. Nəticədə, bu uşaqlar kriminala, qətlə, hər cür cinayətlərə normal baxan varlıqlara çevrilirlər. Yəni, faktiki olaraq, əksər validenylər öz uşaqlarının ən böyük düşmənidir.

Məsələ, təkcə virtual dünya ilə də bitmir, real dünyadan da ciddi təhlükə var. Valideynlər övladlarının həyətdə, küçədə kimlərlə oturub-durduğuna mütləq nəzarət etməlidir. Bu nəzarət olmadıqda, onlar asanlıqla, kriminal qrupların, narkomanların və sair təhlükəli qrupların təsirinə düşürlər. Bir sözlə, hər bir uşaq sutkada 24 saat saniyə-saniyə nəzarətdə olmalı və belə şeylərdən uzaq saxlanmalıdır. Bunun üçün uşaqların asudə vaxtının düzgün təşkili də çox vacibdir.

Keçmişdə çox sayda ödənişsiz yaradıcılıq və idman mərkəzləri vardı və uşaqlar, yeniyetmələr onlara yönəldilirdi, onların zərərli meyllərə vaxtı da qalmırdı.. İndi belə yerlər həm azdır, həm də pulludur. İmkansız ailələr hər uşaq üçün ayda 50-100 manat ödəyə bilmir. Bir ailədə orta hesabla 2-3 uşaq olduğunu nəzərə alsaq, bu, ailənin gəlirinin çox ciddi bir hissəsini aparar. Belə olduqda isə uşaqlar asudə vaxtlarını internetdə vəhşilik və aqressiya dolu oyunlarla, zorlama, qətl və sair cinayətləri təbliğ edən təhlükəli videmateriallara baxmaqla keçirirlər. Bu, onların alt şüuruna hopur; adam öldürmək, quldurluq etmək beyinlərində adiləşir. Virtual oyunlarda şəhərləri partladıb dağıdan, qabağına çıxan hər kəsi qətlə yetirən uşağın psixologiyasında bu hallar adiləşir və normal qəbul olunur.

Daha bir problem isə məktəblərlə bağlıdır. Məlum olduğu kimi, bütün tarix boyu və indi də bütün ölkələrdə məktəb təlim-tərbiyə ocağıdır. Hətta təhsilin ən yüksək səviyyədə olduğu Finlandiya və Yaponiya kimi ölkələrdə də məktəbin prioriteti təhsildən qabaq tərbiyədir. Əxlaqı olmayan təhsil təhlükə mənbəyidir. Bizdə də bu yaxınlaradək məktəb təlim-tərbiyə ocağı idi. İndi isə 'şagirdyönümlü təhsil sistemi' adı altında məktəbin əlindən tərbiyə funksiyası alınıb, müəllim tam səlahiyyətsiz qoyulub. Uşaqlar günlərinin yarısını keçirdikləri məktəbdə tam nəzarətsiz, heç bir tənbehə məruz qalmadan özbaşına davranırlar və hər cür hadisələr törədirlər. Artıq neçə illərdir ki, məktəblərdə cibində bıçaq gəzdirib dava edən, müəllimləri lağa qoyun, açıq təhqir edən uşaqlar görürük, çünki bilirlər ki, onlara heç kim heç nə deyə bilməz. İndi isə, vəziyyət məktəbə odlu sulah gətirib kimisə güllələmək səviyyəsinədək gəlib. Bu halların qarşısını almaq üçün "şagirdyönümlü" adı ilə qoyulmuş cəfəngiyyata son qoyulmalı, bu yeni təhsil eksperimenti dayandırılmalı, məktəblərə tərbiyə funksiyası geri qaytarılmalı, müəllimlərin şagird üzərində nəzarət və tənbeh hüququ bərpa edilməlidir.

Belə hadisələr törədən uşaqların valideynləri ağır cəzalandırılmalıdır. Yalnız bu, onları uşaqlarına tərbiyə verməyə vadar edə bilər. Əks halda, bu sahədə vəziyyət daha da pisləşəcək. Sağlam gənclik istəyiriksə, bu məqamlara təcili müdaxilə etməliyik. Həm də çox təcili. Çünki artıq onsuz da çox gecikmişik...

# Stresli hamiləlik autizmə səbəb olur?



Yaponiyada aparılan genişmiqyaslı bir araşdırma, hamiləlik və ya doğuşdan sonrakı dövrdə ağır psixoloji stress və depressiya yaşayan anaların uşaqlarının autizmlə əlaqəli xüsusiyyətləri daha çox ehtiva etdiyini aşkarlayıb. Tohoku Universitetinin tədqiqatçıları 23.000-dən çox ana-uşağı müşahidə edərək əldə edilən məlumatları təhlil etdilər. Nəticələr, hamiləliyin əvvəlində və ortasında, eləcə də doğuşdan bir ay sonrayadək analarda müşahidə edilən depressiv simptomlarla uşaqlarda neyroinkişaf fərqləri arasında əhəmiyyətli bir korrelyasiya olduğunu göstərdi. Təsir xüsusilə qızlarda özünü daha qabarıq şəkildə büruzə verib.

Elm bu günədək deyirdi ki, autizm əsasən genetik əsaslıdır, yəni bu xəstəliyin yaranmasında ən güclü rolu irsi faktorlar oynayır. Hamiləlik dövründə uzunmüddətli və çox ağır stress bəzi hallarda risk faktorlarından biri kimi araşdırılıb, lakin bu stress mütləq autizmli uşaq yaradır demək deyil. Bu günədək dünyada aparılmış bir çox araşdırmalar göstərirdi ki, stress beynin inkişafına dolayı təsir göstərə bilər, amma tək başına autizm səbəbi deyil və çox stress yaşayan anaların böyük əksəriyyətinin uşaqları tam sağlam doğulur.

Autizmlə daha çox əlaqələndirilən amillər əsasən genetik meyl, hamiləlik zamanı bəzi ağır infeksiyalar, çox erkən doğuş, valideyn yaşının yüksək olması (xüsusilə ata yaşı), bəzi bioloji və neyroinkişaf faktorlardır. Bir vacib məqam da odur ki, övladı autizm olan bir çox ana sonradan ”hamiləlikdə stress keçirmişdim” deyə özünü günahlandırır. Bu günədək alimlər bunu elmi olaraq doğru yanaşma hesab etmirdi. Autizm ananın emosional vəziyyətinə bağlanacaq qədər sadə bir xəstəlik hesab edilmirdi.

Hamiləlikdə stress təhlükəlidir, bu doğrudur. Uzunmüddətli və çox güclü stress bəzən körpənin az çəki ilə doğulmasına səbəb ola, erkən doğuş riskini artıra bilər. Doğulan uşaqda sonradan diqqət dağınıqlığı, yuxu pozuqluğu və emosional həssaslıq ola bilər. Bəzən valideynlər diqqət dağınıqlığı olan uşaqların autizm ola bilmə ehtimalını düşünür, lakin bu sadəcə ehtimaldır. Diqqəti dağınıq olan hər uşağa autizm diaqnozu qoyulmur.

Autizmin erkən əlamətləri əsasən 3 yaşadək bəlli olur. Əgər 0-12 ayda göz kontaktı azdırsa, adına reaksiya vermirsə, gülümsəmənin az olması şübhələnməyə əsas verir. 1-2 yaş aralığında ən sadə sözlərdən istifadə etməməsi, barmağı ilə oyuncaqlarını və ya kimisə işarə etməməsi, ”ana”, ”ata” kimi sözləri deməməsi, 2-3 yaş aralığında eyni hərəkətləri təkrar etmə (əl çırpma, fırlanma), oyuncaqlarla məqsədli deyil, təkrar-təkrar oynaması, başqa uşaqlara marağın az olması, səsə, işığa, toxunuşa həddən artıq reaksiya göstərməsi autizmdən şübhələnmək üçün əlamətlərdir.

Lakin bu vəziyyətdə belə bu əlamətlərə görə valideynin öz uşağına autizmli kimi baxması doğru deyil, bu diaqnoz peşəkar tərəfindən körpə ətraflı müayinə olunduqdan sonra qoyulmalıdır. İnkarolunmaz bir fakt var ki, heç bir ana ”stresli hamiləlik keçirdim deyə uşağım autizmli doğuldu, deməli günah məndədir” deyə düşünməməlidir. Autizm tək səbəbli deyil, çoxfaktorlu xəstəlikdir.

Unutmaq lazım deyil ki, erkən dəstək alan uşaqların inkişafı xeyli yaxşılaşır. Buna görə də 6-12 aylıq körpə göz kontaktı qurmursa, onu dindirəndə gülümsəmirsə, adını çağıranda baxmırsa pediatra və ya uşaq nevroloquna müraciət etmək lazımdır. 12-18 ay uşaqlarda autizmin aşkarlandığı çox önəmli dövrdür. Bu dövründə olan uşaqlar hər hanı bir istiqamətə, oyuncağına barmağı ilə işarə vermirsə, ondan göstərməsinixahiş etdiyimiz bir şeyi göstərə bilmirsə bu zaman şübhəyə əsas var. Autizm diaqnozu bir müayinədə qoyulmur, müşahidə və testlərlə qiymətləndirilir.

Autizmin erkən diaqnozu həm uşaq, həm də ailəsi üçün çox əhəmiyyətlidir. 2-4 yaş arası müdaxilə ən effektiv müdaxilə dövrüdür. Bu dövrdə danışığı, sosial əlaqəni, davranışı xeyli yaxşılaşdıran müalicə metodları var. Bəzən valideynlər bu kimi hallarda ”böyüdükcə düzələcək” kimi düşüncələrə qapılaraq çox vaxt itirirlər. Unutmaq lazım deyil ki, erkən diaqnoz autizmli uşaqları cəmiyyətə qaytarır, təhsil almasına, yaşıdları kimi sosiallaşmasına kömək edir.

**Lalə Mehralı**

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

*Yazı Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyə dəstəyi ilə “uşaq və gənclərin fiziki və mənəvi inkişafı” istiqaməti çərçivəsində hazırlanıb*

# Mərkəzi Asiyanın yeni güc mərkəzi yaranır

İki qonşu dövlət arasında münasibətləri həqiqi dostluq, səmimi əməkdaşlıq üzərində qurmaq bəzi dövlətlərə nəsib olmur. Əksər hallarda qaşıdurmalar, bir-birinə düşmən münasibətlər bəslənir. Rusiyanın öz qonşularına qarşı tutduğu qərəzli mövqe buna misal ola bilər. Rusiyanın vassalı olmuş Ermənistanda 30 ilə qədər Azərbaycanın torpaqlarını işğalda saxladı. Nəhayət, 2020-ci ilin sentyabrın 27-də başlayan və 44 gün davam edən Vətən müharibəsi ilə Ermənistanı işğalı dayandırıb diz çökməyə məcbur etdi. Artıq Azərbaycan öz ərazi bütövlüyünü və suverenliyini tam təmin edib. Bunun fonunda Ermənistan Azərbaycanla düşmənçiliyin ona iqtisadi, siyasi, hərbi fəlakətlər yaradacağını anladığından sülhə doğru addım atmağa başlayıb. Eyni proseslərin dünyanın digər regional dövlətlərində, o cümlədən Pakistanla Əfqanıstan arasında da baş verə biləcəyinə ümid edilir. Təəssüf iki qonşu müsəlman dövlət bir-biri ilə uzun müddətdir ki, qarşıdurma vəziyyətindədir. Dəfələrlə iki qonşu dövlət arasında silahlı toqquşmalar baş verib. Nəticədə insanlar ölüb, yaşayış məskənləri dağıdılıb. 2025-ci ilin dekabrında yaşanan toqquşmalarda hər iki tərəfdən 50-yə yaxın əsgər və zabit həyatını itirmişdir. Məlumatlara görə, Əfqanıstan Pakistanın iki nəzarət məntəqəsini dağıdıb və iki məntəqəsini ələ keçirdiyi bildirilirdi.Tərəflər baş verən toqquşmalarda bir-birini günahlandırmışdılar. Əfqanıstanda hakimiyyət də iddia edir ki, Pakistan hərbçiləri Talibanın bazalarına zərbələr endirib və bu zaman 49 mülki insan həlak olub. Eyni iddia ilə Pakistan tərəfi çıxış etmişdir. Pakistan rəsmiləri rəsmi Kabili Pakistan ərazisində hücumlar həyata keçirən terrorçulara sığınacaq verməkdə ittiham edib. Taliban isə bu ittihamları rədd etmişdir. Nəhayət, ABŞ-ın, Türkiyənin və Çinin fəal müdaxiləsi və apardıqları danışıqlarla Pakistanla Əfqanıstan arasında atəşkəsə nail olmaq mümkün oldu. Lakin bu atəşkəsin kövrək olduğu iddia edilir. Yəni hər an tərəflər arasında toqquşmalar baş verə bilər.

### Əfqanıstanda yaranan dini hakimiyyətin özəlliyi

Əfqanıstanda yaranan hakimiyyət dini hakimiyyətdir. Bu dövlətin idarəetməsi dini




qaydalara əsaslanır. 2021-ci ildə Taliban Amerika qoşunlarına etdiyin intensiv təsir və təzyiqləri ilə yenidən uğur əldə etməyə nail oldu. Nəticədə Bayden hakimiyyəti ABŞ qoşunlarının Əfqanıstandan çıxarılmasına qərar verdi. Bundan sonra Əfqanıstanda hakimiyyətə yenidən Molla Heybətullah Axundzadə gəldi. O, ”Ali Lider” və ənənəvi müsəlman titulları olan ”əmir əl-möminin” (ərəb dilində möminlərin komandanı) titullarına sahib oldu.

Qeyd edək ki, Heybətullah Axundzadə 1990-cı illərdə ilk Taliban rejimi dövründə ali hakim vəzifəsində çalışmış və 2016-cı ildə, Amerikanın Əfqanıstanı işğalı zamanı, əvvəlki lider Molla Əxtar Mənsur ABŞ raket zərbəsi nəticəsində öldürüldükdən sonra hərəkatın lideri olmuşdur. 2017-ci ildə Axundzadənin oğlu intiharçı oldu: o, partlayıcı maddələrlə dolu ciplə Əfqanıstanın cənubundakı Helmand əyalətində ABŞ hökumətini dəstəkləyən nəzarət məntəqəsinə daxil olub. Axundzadə bundan xəbərdar olmaqla yanaşı, həm də oğluna əməliyyat üçün xeyir-dua verib. Hakimiyyəti ələ keçirdikdən sonra Axundzadə Əfqanıstanın paytaxtı Kabilə köçmədi, ölkənin cənub hissəsindəki Qəndəharda qaldı. Taliban bu şəhərdə formalaşdı və hərəkatın əsas mərkəzi və qalası olaraq qalır. Ali Lider olaraq Axundzadə rəsmi olaraq Allahdan başqa heç kimə hesabat vermir və onun əmrləri sorğu-sual mövzusu deyil. O, nadir hallarda ictimaiyyət qarşısında görünür. Onun yalnız iki fotoşəkli və çıxışlarının bir neçə audioyazısı - əsasən Qəndəhar məscidlərindəki moizələri - məlumdur.

Əfqanıstanın Baş nazir Həsən Axund Talibanın qurucularından biri, dövlətin gündəlik idarəçiliyinə cavabdehdir. O, Talibanın ilk hakimiyyəti dövründə xarici işlər naziri vəzifəsində çalışıb. 2021-ci ildən bəri hökumət və Taliban daxilində ”Qəndəhari” və ”Kabul” fraksiyaları kimi tanınan iki fraksiya yaranıb. Baş nazir Həsən Axund da daxil olmaqla ”Qəndəhari” fraksiyaları Axundzadənin təbeliyindədirlər. Onlar əsasən ilahiyyatçılar, ixtisasca hüquqşünaslardır. Təəssüflər olsun ki, ölkənin şəriət qanunlarına əsasən idarə etmələri Əfqanıstanı dünya birliyindən kənarda qalmasına gətirib çıxarıb.

### Ali Lider Heybətullah Axundzadə ”mütləq hakimiyyətə” malikdir

Əfqanıstan hakimiyyətinin bir qolu olan ”Kabuli” fraksiyaları əsasən 1980-ci illərdə Sovet qoşunlarına və 2000-ci və 2010-cu illərdə amerikalılara qarşı vuruşan keçmiş səhra komandirləridir. Bu fraksiyanın əsas fiqurları arasında Talibanın faktiki hərbi lideri olan Baş nazirin müavini Əbdülqəni Bəradər. Ali Lider Heybətullah Axundzadə ”mütləq hakimiyyətə” malikdir, lakin Siracuddin Haqqani və Məhəmməd Yaqub da daxil olmaqla nazirlər onun qərarlarını şübhə altına alırlar. Bəzi hallarda sözügedən nazirlər Ali Liderin qərarlarını yerinə yetirməkdən imtina edirlər. Bu da hakimiyyət daxilində pərdəarxası qarşıdurmaların yaranmasına gətirib çıxarır.

Aparılan rəy sorğularına əsasən demək olar ki, ”Kabuli” fraksiyası daha praqmatik hesab olunur və Əfqanıstanda Fars körfəzinin ərəb dövlətlərinə bənzər bir dövlət qurmağa çalışır. ”Kəndəharilər” və ”Kabulilər” qruplaşmaları arasında ziddiyyətlər 2021-ci ildən bəri yaranmaqdadır. Xüsusilə, ”Kabulilər” hakimiyyəti ələ keçirdikdən sonra Talibanın ilk tədbirlərindən biri olan ibtidai məktəbdən kənarda qadınların təhsilinə qoyulan qadağaya qarşı çıxdılar. Lakin sonra ”Kabulilər” ”Kəndəharilər”ə tabe olmağı üstün tutdular.

İnternetə qoyulan qadağalar daxili çəkişmələri gücləndirdi. 2025-ci ilin sentyabrında Əfqanıstanın bəzi əyalətlərində internetin verilişi dayandırılmışdır. Baş nazirin müavini Baradar Qəndəhara gedərək Axundzadə ilə görüş təşkil etmişdir. Baş nazirin müavini internetin kəsilməsinin ölkənin xarici aləmlə əlaqələrinin kəsilməsi demək olduğunu bildirmiş, həm də qeyd etmişdir ki, internet olmadan bankçılıq və digər həyati əhəmiyyətli fəaliyyətlər praktik olaraq mümkün deyildi. Ali Lider Axundzadə bu arqumenti rədd etmişdir. Onun üçün internet ”inamsızlıq yuvası” hesab olunurdu. Bundan sonra Axundzadə ölkənin Rabitə Nazirliyinə Əfqanıstan boyunca interneti bağlamağı əmr etdi. Əmr icra olundu. Lakin hakimiyyətin əsas gücləri buna etiraz etdilər Baş nazir Axundzadədən internetin bərpa olunmasını tələb etdilər. Bu, Ali Liderin əmrinin birbaşa və açıq şəkildə pozulması idi - Talibanda görünməmiş bir hal hesab olunurdu. ”Kabul” fraksiyası baş nazirə Axundzadə üçün tam məsuliyyəti öz üzərlərinə götürəcəklərinə söz verdilər. Baş nazir razılaşdı.Məhz bundan sonra internetin bərpası təmin edildi. Diqqətçəkən məqam ondan ibarətdir ki, hakimiyyətin yuxarı eşalonu bu cür müstəqil mövqeyə qarşı çıxmadılar.

Hesab etmək olar ki, internetin kəsilməsinə görə ayağa qalxan hakimiyyətin aparıcı şəxsləri ölkənin müasir dövrünü tələblərinə uyğun qurulması istiqamətində də fəaliyyətlərini qura bilər. Bu hal baş versə, Əfqanıstan Mərkəzi Asiyanın aparıcı dövlətlərindən birinə çevrilər. Həm də dünyanın güc mərkəzlərindən biri olaraq tanınar. Sadəcə buna getmək və ortaya siyasi iradə qoymaq lazımdır.

**İLHAM ƏLİYEV**

# Azərbaycan və BƏƏ arası münasibətlər yeni strateji mərhələyə yüksəlib



*Vilayət İSMAYILOV,*
*iqtisad elmləri doktoru, professor*

***2** fevral 2026-cı ildə Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Birləşmiş Ərəb Əmirliklərinə (BƏƏ) işgüzar səfər edib. Azərbaycan Prezidentinin Əbu-Dabidə BƏƏ-nin Prezidenti Şeyx Məhəmməd bin Zayed Al Nəhyanla baş tutan görüşü iki ölkə arasında formalaşmış strateji tərəfdaşlığın növbəti mərhələyə keçdiyinin göstəricisidir. Prezident İlham Əliyev ilə Prezident Şeyx Məhəmməd bin Zayed Al Nəhyan arasında keçirilən görüş regional və qlobal proseslər fonunda xüsusi əhəmiyyət daşıyır. Cənubi Qafqaz, Yaxın Şərq və Avrasiya məkanında baş verən transformasiyalar fonunda Azərbaycan-BƏƏ xətti sabitlik və qarşılıqlı maraqlara əsaslanan əməkdaşlıq modeli kimi çıxış edir.*

Bir sözlə, münasibətlərin dərinləşməsində dövlət başçılarının qarşılıqlı səfərləri və dostluq münasibətləri özünəməxsus rol oynayır. Azərbaycan-BƏƏ münasibətlərinin bugünkü səviyyəyə gəlməsi uzunmüddətli, məqsədyönlü diplomatik fəaliyyətin nəticəsidir. Son illər ərzində tərəflər arasında siyasi dialoq, iqtisadi əməkdaşlıq və təhlükəsizlik sahəsində əlaqələr ardıcıl olaraq inkişaf etdirilmiş və yüksək səviyyəyə gətirilib.

Onu da deyək ki, Azərbaycan və BƏƏ prezidentlərinin iştirakı ilə "Cənub Qaz Dəhlizi" QSC-də İqtisadiyyat Nazirliyinə məxsus qeyri-nəzarət payının müəyyən hissəsinin Əbu-Dabi Milli Neft Şirkətinin investisiya qolu olan XRG Şirkətinə satışı ilə bağlı alğı-satqı müqaviləsinə dair sənəd imzalanıb. Səfər çərçivəsində Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Birləşmiş Ərəb Əmirliklərinin Müdafiə Nazirliyi arasında müdafiə əməkdaşlığı razılaşması barədə niyyət məktubu da imzalanıb.

Səfərin əsas diqqətçəkən məqamlarından biri də Prezident İlham Əliyevlə Ermənistanın baş naziri Nikol Paşinyan arasında geniş tərkibdə keçirilmiş görüşdür. Görüşün neytral və eyni zamanda nüfuzlu məkanda baş tutması Azərbaycanın dialoq prosesinə və sülh quruculuğuna verdiyi önəmin göstəricisi olmaqla yanaşı, iqtisadi əlaqələrin genişləndirilməsi baxımından da xüsusi əhəmiyyət daşıyır. Tərəflər iqtisadi əməkdaşlığı genişləndirmək üçün mümkün imkanların araşdırılması barədə də razılığa gəldilər ki, bu da öz növbəsində sülhün qorunması vasitəsilə iqtisadi əməkdaşlıq üçün yeni qapılar açır.

İqtisadi əməkdaşlıq Azərbaycanın regional nəqliyyat qovşağı kimi mövqeyini gücləndirməklə yanaşı, eyni zamanda əlavə gəlir mənbələri yaradacaq. Əlavə olaraq, enerji məhsullarının ixracı post-münaqişə dövründə iqtisadi təsir aləti olaraq ön plana çıxır ki, bu həm də Azərbaycanın regional və beynəlxalq bazarlara çıxış strategiyasının tərkib hissəsi kimi qiymətləndirilə bilər. Bununla yanaşı, siyasi sabitliyin təmin olunması regionun investisiya cəlbediciliyi baxımından xüsusilə əhəmiyyətlidir və Azərbaycanın iqtisadi mərkəz mövqeyini daha da gücləndirir.

Bu səfərin diqqətçəkən məqamlarından biri də Şeyx Zayed Fondunun təsis etdiyi və qlobal miqyasda humanist dəyərlərin təşviqinə xidmət edən "Zayed İnsan Qardaşlığı Mükafatı"nın 2026-cı il üzrə Azərbaycan Prezidentinə təqdim olunmasıdır. Mükafatın Qafqazda davam edən münaqişəyə son qoyulmasına, həmçinin dialoq və birgəyaşayış mədəniyyətinin təşviqi və inkişafına görə verilməsi Azərbaycanın bu məsələdəki potensial imkanlarını bir daha təsdiqləyir. Mükafat komitəsi Azərbaycan Prezidentinin regional sülhün təmin olunmasındakı rolunu vurğulamaqla yanaşı, onun qlobal sülhə töhfəsi istiqamətindəki nailiyyətini də təsdiqləyir. Mükafatın keçmiş laureatları arasında Roma Papasının, BMT-nin baş katibi kimi nüfuzlu şəxslərin olması Prezident İlham Əliyevin qlobal sülh və əməkdaşlığın əldə olunmasındakı nüfuzlu mövqeyini diqqətə çatdırır.

Ümumilikdə, Prezident İlham Əliyevin Birləşmiş Ərəb Əmirliklərinə işgüzar səfəri Azərbaycan-BƏƏ münasibətlərinin yeni, strateji mərhələyə yüksəlməsini simvolizə edir. Səfər siyasi, iqtisadi, enerji və təhlükəsizlik sahələrində qarşılıqlı əməkdaşlığın daha da dərinləşməsinə və ölkələrimiz arasında uzunmüddətli tərəfdaşlıq münasibətlərinin möhkəmlənməsinə güclü zəmin yaradıb.

## ELAN

Yeni Azərbaycan Partiyasının Ucar rayon təşkilatı tərəfindən İsrafilov Həmdiyə Fuad oğluna verilmiş 522325 N-li üzvlük vəsiqəsi itdiyi üçün etibarsız sayılır.

***

Azərbaycan Respublikası Baş Prokurorluğu tərəfindən Məmmədov Elnur Şahin oğluna verilmiş 039 N-li xidməti vəsiqə itdiyi üçün etibarsız sayılır.

## "SƏS" qəzetinə abunə kampaniyası davam edir!



*«SƏS» QƏZETİNƏ ABUNƏ OLMAQ İSTƏYƏNLƏR AŞAĞIDAKI YAYIM ŞİRKƏTLƏRİ İLƏ ƏLAQƏ SAXLAYA BİLƏRLƏR*

1. Azərpoçt Poçtdaşıma Mərkəzi – 0125984955, 0552004544
2. Mətbuat Yayım MMC – 0124411991, 0124404694
3. Səma Mətbuat Yayım – 0125940252, 0503336969
4. Pressaİnform MMC – 0125115191, 0504560835, 0553156002
5. Qaya Mətbuat yayım – 0125667780, 0502352343
6. Ziya LTD – 0124977696, 0503067744
7. Bakmətbuat MMC 0502644010

1 nüsxə 1 aylığı 8 AZN
6 aylıq 48 AZN
1 illik 96 AZN

ABUNƏÇİLƏRİMİZİN XİDMƏTİNDƏYİK
Müraciət, şikayət, yazı, təbrik və başsağlıqlarınızı dərc etməyə hazırıq!

# "WhatsApp"da başqasını təhqir etmək hansı hüquqi məsuliyyət yaradır?




## HÜQUQŞÜNAS AÇIQLADI

Son zamanlarda "WhatsApp" üzərindən şəxsi təhqirlərlə bağlı hüquqi məsuliyyət məsələsi cəmiyyətdə tez-tez müzakirə olunur. Bəs, belə hallarda qarşı tərəfi hansı cəza gözləyə bilər? Məsələ ilə bağlı hüquqşünas Elnur Məmmədov SİA-ya açıqlamasında bildirib ki, əgər "WhatsApp" yazışmalarında real və konkret hədə-qorxu mövcud deyilsə, həmin yazışmaların öz-özlüyündə hüquqi məsuliyyət yaratması mümkün deyil:

"Belə ki, şəxslər arasında baş verən şəxsi yazışmalar kütləvi xarakter daşımadıqda, yəni üçüncü şəxslərin iştirakı olmadan, qapalı ünsiyyət mühitində həyata keçirildikdə, bu cür ünsiyyət ictimai təhlükəlilik dərəcəsinə çatmır. Hüquqi baxımdan mühüm olan məqam odur ki, hər hansı fikir, ifadə və ya yazışma kütləvi informasiya vasitələrində, kütləvi tirajla yayımlanan çap məhsullarında, açıq ictimai çıxışlarda və ya internet informasiya resurslarında yayılmadığı halda, onun cəmiyyət üçün təhlükə yaratdığı iddia edilə bilməz. Cinayət tərkibinin formalaşması üçün yalnız subyektiv ifadələrin mövcudluğu kifayət etmir; həmin ifadələrin real təhlükə yaratması və cəmiyyətə yönəlməsi əsas şərtlərdəndir. Məhz bu səbəbdən qanunvericilikdə bir sıra cinayət tərkiblərinin əsas əlamətlərindən biri "kütləvilik" meyarıdır. Yəni əməl geniş ictimaiyyətə ünvanlanmalı, ictimai asayişi və ya ictimai münasibətləri poza biləcək səviyyədə yayılmalıdır. Şəxsi yazışmalarda isə bu meyar mövcud olmadığından, ortada cinayət tərkibinin yaranmasından söhbət gedə bilməz. Real hədə-qorxu, çağırış və ya zorakılığa təhrik kimi elementlər olmadığı, eləcə də yazışmalar kütləvi şəkildə yayılmadığı hallarda, "WhatsApp" və digər oxşar platformalarda aparılan şəxsi ünsiyyət hüquqi məsuliyyət doğurmur. Çünki bu tip cinayətlərin hüquqi mahiyyəti və əsası məhz kütləvi xarakter daşıması və ictimai təhlükəlilik yaratması ilə müəyyən olunur".

*Arzu Qurbanlı*

*Baş redaktor:*
**Bəhruz Quliyev**

Ünvanımız:
**Bakı şəhəri, Üzeyir Hacıbəyli küçəsi, 66.**
**Şəhadətnamə:№ 022492**
**sesmediaqrup@gmail.com**
**sesqazeti@gmail.com**
"ƏLİNCƏ" AZƏRBAYCAN XEYRİYYƏ CƏMİYYƏTİNİN ORQANI.
QƏZET 1991-Cİ İL YANVARIN 11-DƏN ÇIXIR
**Tel: 598-33-90**
**Faks: 493-11-62**

Redaksiyanın mövqeyi ilə müəllifin mövqeyi üst-üstə düşməyə bilər.

Qəzet həftədə iki dəfə nəşr olunur

**Tiraj: 2000**